AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**ELAN**

**Bakı şəhəri** **31 oktyabr 2023-cü il**

**“Alternativ məktəbəqədər təhsil xidmətlərinin təşkili” pilot qrant proqramı**

Kiçik yaşlarından başlayaraq uşaqların məktəbəqədər təhsilə cəlb olunması onların gələcəkdə akademik nailiyyətlərinin yüksək olmasında müstəsna əhəmiyyət daşıyır. Hazırda ölkəmizdə erkənyaşlı uşaqların məktəbəqədər təhsilə cəlb olunma göstəricisi təxminən 35% təşkil edir ki, bu da aşağı göstərici hesab olunur. Göstəricilərin aşağı olmasının səbəblərindən biri ölkədə məktəbəqədər təhsil müəssisələrinin sayının az olmasıdır. Eyni problemi yaşayan ölkələrdə uşaqların məktəbəqədər təhsillə əhatə olunması üçün alternativ məktəbəqədər təhsil modelləri tətbiq olunur. Bu yanaşmadan ölkəmizdə də istifadə edilir və uşaqların məktəbəqədər təhsillə əhatə olunmasının genişləndirilməsi məqsədilə üç-dörd yaşlı uşaqlar üçün icma əsaslı məktəbəqədər təhsil qrupları fəaliyyət göstərir. Hazırkı dövrədək icma əsaslı məktəbəqədər təhsil qrupları (https://www.icmalayihesi.edu.az/) ölkənin 55 şəhər və rayonu üzrə ümumilikdə 16000 uşağı əhatə edib.

Hazırda bu prosesin davamı kimi Elm və Təhsil Nazirliyi alternativ məktəbəqədər təhsil xidmətlərinin təmin olunması üçün fərqli maliyyələşdirmə mexanizmlərinin tətbiqini nəzərdən keçirir. Bu məqsədlə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ümumi təhsil və ya məktəbəqədər təhsil müəssisələri, eləcə də onların rəhbərləri üçün **“Alternativ məktəbəqədər təhsil xidmətlərinin təşkili”** pilot qrant proqramını elan edir. Pilot qrant proqramının həyata keçirilməsində əsas məqsəd məktəbəqədər təhsildən kənarda qalmış uşaqların məktəbəqədər təhsil xidmətləri ilə təmin edilməsi istiqamətində qrant vasitəsilə maliyyələşdirmə mexanizminin sınaqdan keçirilməsidir.

**Pilot qrant proqramına təqdim edilən layihə təklifləri aşağıdakı texniki tələblərə cavab verməlidir:**

- Layihə təklifi bu elana əlavə edilmiş Forma əsasında tərtib edilərək müraciət edən ümumi təhsil və ya məktəbəqədər təhsil müəssisəsinin rəhbəri tərəfindən fiziki şəxs qismində imzalanmış olmalı, ümumi təhsil və ya məktəbəqədər təhsil

müəssisəsinin VÖEN-i olduqda bu layihə təklifində qeyd edilməli və layihə təklifi həm də təhsil müəssisənin möhürü ilə təsdiqlənməlidir.

- Layihənin icra müddəti maksimum növbəti tədris ilinin başlanğıcınadək davam edə bilər;
- Layihənin büdcəsi maksimum 20 000 (iyirmi min) manat təşkil edə bilər.

**Yuxarıdakı bütün tələbləri ödəyən iştirakçıların layihələri aşağıdakı meyarlar əsasında 100 ballıq şkala ilə qiymətləndirilir:**

- Problemin qoyuluşu – 10 bal;
  *(Problemin təsviri və aktuallığı, ehtiyacların müəyyənləşdirilməsi və həll yolunun göstərilməsi)*
- Görüləcək işlər və gözlənilən nəticələr – 25 bal;
  *(Görüləcək işlərin ətraflı təsviri və aydınlığı, problemin həllinə yönəlməsi, təhsilə və benefisiarlara töhfəsi, vaxt təyini, ardıcıllıq və icra mexanizmi)*
- İcra potensialı – 25 bal;
  *(Tərəfdaşlıq və kadr potensialının yetərliliyi)*
- Layihənin büdcəsi – 25 bal;
  *(Xərclər smetası, onun layihənin məzmununa və orta bazar qiymətlərinə uyğunluğu)*
- Monitorinq və hesabatlılıq – 15 bal.
  *(Monitorinq və hesabatlılıq metodologiyası)*

**Qrant qazanan layihələrin müəyyənləşdirilməsi:**

- Pilot qrant proqramında aşağıdakı regionlardan daxil olmuş layihələrə üstünlük verilir:
  - Naxçıvan Muxtar Respublikası;
  - Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə geri qayıdışı baş tutmuş əhalinin məskunlaşdığı yerlər;
  - Lənkəran-Astara iqtisadi rayonu ;
  - Gəncə-Daşkəsən iqtisadi rayonu.
- Qrant qazanan layihələr qiymətləndirmə nəticəsində 50 və daha yüksək bal toplamış layihələr içərisindən müəyyənləşir;
- Eyni icma üçün birdən artıq layihə 50 və daha yüksək bal topladıqda ən yüksək bala malik layihələr qrant qazanır.

**Müsabiqəyə müraciət üçün son tarix: 15.11.2023**

Sənədlərin qəbulu alternativxidmet@edu.gov.az elektron poçtu vasitəsilə həyata keçirilir.

**Əlaqə:**

- Ünvan: AZ1008, Azərbaycan Respublikası, Bakı şəhəri, Xətai prospekti 49
- E-mail: alternativxidmet@edu.gov.az